

Ayaz Arabaçı

# ORDU

*Qolumuzun qüvvəti, dizimizin dirənci,*
*Kişiliyə,qeyrətə, namusa məhvər ordu.*
*Ümidləri günəştək qar altından oyadan,*
*Bir qom bənövşə kimi təzə ordu, tər ordu..*

*Gördüm ilk savaşını barmağımı dişlədim..*
*Dalbadal qazandığın zəfərə vərdişlədim,*
*Səni öyməkdən ötrü hansı sözü işlədim,*
*Hansı sözü işlədim, igid ordu, ər ordu?..*

*Sənə qucaq açıb, get, Şuşa adlı pirimiz..*
*Sonuncu pəncəsini qolaylayır şirimiz..*
*Bir ananın döşündən əmmişik hər birimiz,*
*Bu gün bu torpaqdakı hamı, bir nəfər ordu.*

*Ürəyim gedən yerə həmişə tək getmişəm..*
*Nə səndən qırıq qalıb, nə sənə şəkk etmişəm,*
*Adını ürəyimin başına həkk etmişəm,*
*Sən bir qalib ordusan, sən bir müzəffər ordu.*

*Can qurban etməzmiyəm, hayqırtına-səsinə..*
*Səsimi duydurmusan dünyanın hər kəsinə,*
*Hamının gözü çıxıb heyrətdən kəlləsinə,*
*Misilsizdi çaldığın bu böyük zəfər, ordu..*

*Gör necə vüqarlısan zirvələrin qaşında,*
*Hər oğlu bir Babəkim, dəbilqəsi başında..*
*Tanrı özü dayaqdı sənə haqq savaşında,*
*Səni yenə bilərmi şeytan ordu, şər ordu.*

*Sənin belə hirsini, qeyzini gözləmirdim,*
*Dronların səmada feyzini gözləmirdim..*
*Açığı mən bu qədər tezini gözləmirdim..*
*Göstərdin necə olur yağıya məşhər, ordu..*

*Sən bu gün hər nəzmdə, sən bu gün hər nəsrdə,*
*Qalmaz daha bir arzum, qalmaz daha, kəsrdə..*
*Bir onu bilirəm ki, bu möhtəşəm əsrdə,*
*Sənə bənzəmək istər cəsarətdə hər ordu.*

ədalət.- 2022.- 5 noyabr.- S.6.